Tarix və onun problemləri, №1 2010

AİDƏ HACIYEVA
*Azərbaycan MEA Azərbaycanın Milli Tarixi muzeyinin dissertantı*

# YAZILI MƏNBƏLƏR XƏZƏRLƏRİN ALBANİYAYA YÜRÜŞLƏRİ HAQQINDA

Albaniya - Xəzər münasibətləri Azərbaycanın ilk orta əsrlər dövrünün siyasi tarixində xüsusi yer tutur. Albaniya ilə böyük inzibati əraziyə və böyük hərbi gücə malik olan şimal qonşusu Xəzər xaqanlığı arasında iqtisadi-ticarət və mədəni əlaqələrlə bərabər, hərbi-siyasi proseslər də baş vermişdir. Bu əlaqələrin öyrənilməsinin Azərbaycanın ilk orta əsrlər dövrü tarixinin bir sıra məsələlərini işıqlandırmaq üçün xüsusi əhəmiyyəti vardır.

İlk orta əsrlər dövrü yazılı mənbələrdə xəzərlərin təxminən yüz il ərzində Azərbaycan torpaqlarına hücumları və ona qarşı müxtəlif formada aparılmış mübarizə haqqında xeyli məlumat verilir (5, k.2, f.29). M.Kalankatuklu yazır: «İraklinin təhriki ilə saysız-hesabsız Xəzər orduları ölkəmizə soxulub onu talan etməyə başladılar» (5, k.2, f.11). «Xəzərlərin hücumunun qarşısını almaq üçün Xosrov şah onlara hədələr dolu məktub göndərdi. Xəzərlər Dərbənd keçidi ilə geriyə çəkildilər. Onlar Sasani şahı Xosrovun qətlə yetirildiyi ildə ölkəyə yenidən hücum etdilər» (5, k.2, f.11). Xəzərlərin növbəti hücumunda Dərbənd keçidindən birbaşa Bərdəyə qədər irəliləmə nəzərdə tutulmuşdu. M.Kalankatuklunun məlumatına görə, «bu dəhşətli və qəmli xəbər Albanlar ölkəsinə çatanda böyük paytaxt və qala olan Bərdədə ölkəmizin möhkəmləndirilməsi haqqında qərar çıxardılar. Qərar Xosrov şahın bu ölkənin valiliyinə təyin etdiyi Qayşaq adlı şəxs tərəfindən verilmişdi. O, şəhərdə ətraf vilayətlərin əhalisinin çoxunu saxlayaraq, xəzərlərə müqavimət göstərmək qərarına gəldi və ölkənin əyanları və şəhər əhalisi ilə ittifaq bağlayaraq öz mövqeyini möhkəmlətməyə çalışdı. O, böyük Çola şəhərinin müdafiəçiləri və onun həddindən artıq möhkəm divarlarını qoruyan döyüşçüləri ilə nə ola biləcəyinə diqqət etməyə hazırlaşdı» (5, k.2, f.11). Həmçinin, M.Kalankatuklu bildirir ki, «Dəhşətli qırğınlarla başlanmış hücum xəbəri ölkənin paytaxtı Bərdəyə çatdırıldı» (5, k.2, f.11). Həmin dövrdə Bərdədə baş verənləri M.Kalankatuklu aşağıdakı kimi təsvir edir: «Bu xəbər Bərdə şəhərinə sahib olan və onu idarə edən bizim ağamıza çatanda o, yaxınlaşan böyük təhlükədən çıxış yolu axtarmaq üçün qorxudan şəhərin İç qalasına sığınan qoşunlarla məsləhətləşmək istədi. Amma o, danışmaq üçün ağzını açmaq istəyəndə onu elə dəhşət bürüdü ki, dizləri bir-birinə dəyib, elə əsdi ki, bir kəlmə belə ağzından çıxara bilmədi» (5, k.2, f.10).

M.Kalankatuklu daha sonra məlumat verir ki, Xəzər orduları sürətli hücumla Albaniyaya daxil oldu. Uti vilayətinə yayılmış xəzərlər qaçanları da geri qaytardılar (5, k.2, f.10; 6, s.143).

Yazılı mənbədə və tədqiqatlarda göstərilir ki, «626-cı ildə xəzərlərin xaqanı şahlıq rütbəsinə görə Şad adlanan qardaşı oğlunun başçılığı altında vəd etdiyi ordunu Albaniyaya göndərdi. O, Albaniyanın bütün vilayətlərini və Atropatenanın bir hissəsini yağmalayıb çoxlu xristian və bütpərəstləri qılıncdan keçirdi, geri qayıdarkən özləri ilə çoxlu əsir apardı» (5, k.2, f.11; 6, s.143).

Ərəb mənbələrində verilən məlumata görə, VII əsrdə (628-ci ildə) xəzərlərlə döyüşlər zamanı Albaniyanın paytaxtı Bərdə şəhərinin qala divarları dağıdılmışdır (3, s. 76).

Moisey Kalankatuklu qeyd edir ki, «Xəzərlər Tiflis şəhərini mühasirə edib aldıqdan sonra əhaliyə güclü divan tutdular. Şəhəri talan və qarət edib Alban ölkəsinə üz çevirdilər. Şadın ordusu Alban ölkəsinə gəlib Sasani şahının canişini olan Albaniyanın Sema Vişnasp adlı mərzbanına və Albaniyanın katolikosu Viroya elçilər göndərdi. Sasani mərzbanı onları qəbul etməyib özü ilə bir çox qiymətli şeyləri də götürüb Şahlığa qaçdı» (5, k.2, f.14; 2, s.51; 4, s. 80; 6, s.143). Xəzər qoşunlarının sürətlə hücum edərək ölkənin hər yerini bürüməsi, Katolikos Vironun ölkənin bütün adlı-sanlı adamlarını, çar nəslindən olan bütün zadəganları, vilayət valilərini, kəndxudaları, keşişləri və məmurları Çiləbir qalasına çağıraraq onlarla məsləhətləşməsi, böyük pay və ənamlarla Şadın qərərgahına gedərək onların şərtləri ilə razı olduqlarını bildmələri haqda maraqlı məlumat da yazılı mənbədə və tədqiqatlarda əksini tapmışdır (5, k.2, f.14; 2, s.46; 6, s.143).

Alban tarixçisi yazır: «Onlar yerlərindən tərpənib yola düşdülər. Dağlararası düzləri keçib Uti vilayətinin gözəl, hamar və bərəkətli düzənliklərinə enəndə, orada Şadın o qədər əsgərləri var idi ki, onlar doğma yerləri tanıya bilmədilər. ... Şad katolikosu hörmətlə qarşıladı...» (5, k.2, f.14).

Vironun Xəzər tarxanı tərəfindən yaxşı qarşılanmasını xüsusi qeyd edən M.Kalankatuklu: «Şad Vironun ağıllı məsləhətinə qulaq asaraq bütün yerlərə xəbər göndərdi ki, vahiməyə düşmüş, qorxub qaçmış bütün insanlar qayıdıb öz yerlərinə gəlsinlər, yaşayıb dinc əməklə məşğul olsunlar. Bunun əvəzində Viro söz verdi ki, indiyə qədər Sasanilərə etdiyimiz xidməti indi də sizə edərik. Viro ağıllı məsləhətlərlə xəzərlərin aldıqları əsirləri də xilas etdi» (5, k.2, f.14).

Ərəblərin hücumları zamanı sıxışdırılan Xəzərlər Xilafət mərkəzində hakimiyyət uğrunda mübarizəyə baş qarışan zaman 661/62-ci ildə Albaniya ərazisinə daxil oldular. Cavanşir Kür çayını keçərək xəzərlərələ üz-üzə gəldi, onları geri çəkilməyə məcbur etdi (5, k.2; 2, s.76; 6, s.267).

Xəzərlər yenidən 664-cü ilin qışında Albaniyaya hücum etdilər. Onlar Kür çayının o biri tayına keçib Albaniyada və Sünikdə xeyli qoyun və mal-qara sürülərini öz düşərgələrinə apardılar; «bundan sonra hunlar çarı (Xəzər xaqanı - A.H.) Cavanşiri görmək istədi və Cavanşirin yanına öz qardaşlarını göndərərək, onların vasitəsilə görüş istədi ki, aralarında qardaş məhəbbəti yaransın» (5, k.2, f.29).

Mənbədə deyilir ki, «bu vaxtadək heç bir Sasani hökmdarı Türküstan çarı ilə üzbəüz çıxmağa cəsarət etmirdi, lakin igid və mərd Cavanşir ondan heç qorxmadı, ...bütün əyanları ilə onun yanına getdi. Hunlar çarı da qayıqla çayın sərin suları ilə bu sahilə gələrək Cavanşirin qabağına çıxdı. Onlar öz aralarında sülh sazişinə gələrək, ixtilaflara son qoyub qardaşlıq, dostluq haqda razılaşdılar. Müqavilə imzalayıb hər ikisi öz evinə qayıtdı» (5, k.2, f.29; 2, s.77).

Cavanşir müdrik, uzaqgörən dövlət başçısı, bacarıqlı sərkərdə, ağıllı diplomat idi. O, ətrafda baş verən siyasi hadisələrə düzgün qiymət verməyi bacarırdı, başçılıq etdiyi ölkəni böyük dağıntılardan xilas etmək üçün müvafiq tədbirlər görürdü. O, ölkəsini ətrafdakı güclü dövlətlərin hücumlarından qorumaq üçün hələ ərəblərin hakimiyyəti güclənməmiş Bizans imperiyası ilə əlaqələri yaxşılaşdırmaq və ölkəni bizanslıların hücumlarından qorumaq üçün Konstantinlə Albaniyanı təbəəliyə götürməsi üçün danışıqlar aparırdı. Lakin ərəblərin Albaniyanı əhatə edən bütün əraziləri tutması Cavanşiri Bizansla danışıqları kəsib Xilafətlə hesablaşmağa məcbur etdi. Bu zaman ərəbləri Bələncər yaxınlığında (653-cü ildə) məğlub etmiş Xəzərlərin Albaniyaya hücumları yenidən başlandı. Cavanşir 662-ci ildə xəzərlərin hücumlarının qarşısını aldı. Xəzərlərin iki il ondan sonrakı hücumu

(664-cü ildə) Cavanşirin Xəzər xaqanının qızını alaraq onların təbəəliyini qəbul etməklə başa çatdı (5, k.2, f.29; 2, s.76; 8, s.30).

Xəzərlərin basqın etmək təhlükəsi bununla da aradan qalxmadı. Cavanşirin Xəzər xaqanının qızı ilə evlənməsi Albaniyanı bu təhlükədən müvəqqəti xilas etdi ( 5, k.2, f.29; 2, s.77). M.Kalankatuklu bildirir ki, sülh bağlandığına baxmayaraq xəzərlər sonralar Albaniyaya dəfələrlə yürüş etdilər (5, k.2, f.29), Albaniya ölkəsini əsarət altına aldılar (5, k.2, f.5). Albaniya hökmdarı Cavanşir ərəblərə və xəzərlərə qarşı eyni vaxtda mübarizə aparmağın çətinliyini dərk edərək xəzərlərlə müqavilə bağlamışdı. Lakin bu da Albaniyanı hərbi basqınlardan xilas edə bilmədi (5, k.2, f.1).

Cavanşir xəzərlərlə münasibəti normal məcraya saldıqdan sonra Bizansın Xilafətlə apardığı müharibələrdə zəifləməsindən istifadə edərək Xilafətlə münasibətlərə üstünlük verdi. Lakin bu zaman onun qazandığı uğurlar ona qarşı düşmən ünsürlərin baş qaldırmasına səbəb oldu. Sui-qəsd nəticəsində Cavanşir öldürüldü.

Qaynağın məlumatına görə, Xəzər sərkərdəsi Alp İlitver Cavanşirin qəsdən öldürüldülməsinə görə intiqam almaq məqsədilə Albaniya ərazisinə daxil oldu. M.Kalankatuklu bildirir ki, «O, öz böyük, şəxsi dəstəsilə düzənlikləri aşaraq Kür çayını keçdi və Uti vilayətinə daxil olaraq, buradakı insanları öz mal-qarası ilə birlikdə əsarətə aldı. Sonra onlar qayıtdılar və Lpinq yaxınlığında olan düzənlikdə düşərgə saldılar» (5, k.2, f.38).

Mənbə göstərir ki, Xəzər xaqanını Cavanşirin ölümü ilə albanların heç bir əlaqəsi olmadığına inandırdıqdan sonra Xəzər qoşunları Albaniya ərazisindən çıxıb öz ölkələrinə qayıtdılar (5, k.2, f.38).

Xilafət mərkəzində hakimiyyət uğrunda çəkişmələrin artması ilə şimal əyalətlərində, o cümlədən Albaniyada nəzarətin zəifləməsindən istifadə edən Xəzərlər 685-ci ildə yenidən Albaniyaya hücum etdilər. Belə bir mürəkkəb dövrdə Albaniya Xilafətdə hakimiyyətə gəlmiş Əməvilərin, bizanslıların və xəzərlərin döyüş meydanına çevrildi (5, k.III, f.16; 2, s.112).

Beləliklə, yazılı mənbə və tədqiqatlar göstərir ki, Cavanşirin hakimiyyəti dövründə öz müstəqilliyini və qüdrətini qoruyub saxlaya bilən Albaniya aramsız hücumlar və xəyanətlər nəticəsində zəifləmiş, artıq VII əsrin sonlarında üç dövlətə – Xilafətə, Bizansa və həmçinin Xəzərlərə vergi verməyə məcbur olmuşdur.

## *ƏDƏBİYYAT*

1.Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, 1989.
2.Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə, Bakı, 1989.
3.Bəlazuri (IX əsr) «Kitab fütuh əl-buldən» («Ölkələrin fəthi kitabı) // Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında s.67-76.
4.Əl-Kufi. Kitab əl-fütuh (Fəthlər kitabı). Tərcümə akademik Z.M. Bünyadovundur, Bakı, 1995.
5.M.Kalankatuklu. Albaniya tarixi (tərcümə Z.M.Bünyadovundur). Bakı, 1993.
6.Мамедов Т.М. Кавказская Албания в IV-VII вв., Баку, 1993.
7.Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
8.Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.

**АИДЫ ГАДЖИЕВОЙ**
***Диссертанта национального Исторического музея Н.А.Н.А***

## ПИСЬМЕННЫЕ ИСТОЧНИКИ О НАБЕГАХ ХАЗАР НА АЛБАНИЮ

Албано - хазарские отношения еще более обогатили важные моменты исторических процессов, происходивших в начале средних веков.

Наряду с изучением торгово-экономических и культурных отношений, Существовавших между Албанией и ее северным соседом Хазарским каганатом, являвшегося сильным государством с большой территорией, очень важно изучение истории военно - политических процессов между ними. В письменном источнике начала средних веков есть немало сведений о набеках хазар на земли Азербайджана в течение ста лет и о различных формах борьбы против них.

**AIDA HAJIYEVA**
***The dissertant of Azerbaijani National History Museum of Azerbaijan National Science Academy***

## THE URITEN RECOURSES ABOUT THE MARCH OF KHAZARS IN ALBANIA

Albania- Khazar attitudes had enriched the important moments of the historical processes of the first middle ages.Besides the economic trade and cultural connections between Albania and it is Northen neighbour Khazar khanate which has a large adminstratire area and paverful state,it is very improtant from point of view of learning the history of the military-political processes.

There are many informations about the Khazar s attacks to the Azerbaijn lamnds during nearly handred years and about different struggles against it in the written recourses of the first middle age.

***Rəyçilər: AMEA-nın müxbir üzvü İ.Babayev, t.e.d.Q.Ə.Əliyev.***
***AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun «Antik dövr arxeologiyası» şöbəsinin 17 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***